# Qasım bəy Zakirin əsərlərinin tədqiqi və nəşri tarixindən

**Təranə Cavadova**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan.
E-mail: teranecavadova062@gmail.com

**Annotasiya.** Məqalədə XIX əsr Qarabağ – Şuşa ədəbi mühitinin görkəmli nümayəndəsi, Azərbaycan ədəbiyyatında ictimai satirik şeirin banisi Qasım bəy Zakirin həyat və yaradıcılığının tədqiqi və əsərlərinin nəşr tarixinə ümumi nəzər salınmışdır. Şairin yaşadığı dövrdən başlayaraq XIX əsrin sonlarında, XX əsrdə və XXI əsrin son onilliklərində bu sahədə görülmüş işlər barədə müxtəsər məlumat verilmiş, əsərlərinin nəşr tarixi xronoloji ardıcıllıqla tədqiq olunmuş, irsinin öyrənilməsi tarixi isə bu sahədə aparılmış mühüm araşdırmalara müraciətlə ümumi şəkildə ortaya qoyulmuşdur. Məqalə Qasım bəy Zakirin biblioqrafiyasının tərtibi işində yardımçı vəsait rolunu oynaya bilər. Onun nəticələrindən Zakir irsini tədqiq edən gənc mütəxəssislər biblioqrafik istinad mənbəyi kimi faydalana bilərlər.
**Açar sözlər:** Qasım bəy Zakir, divan, avtoqraf nüsxə, təzkirə, cüng, külliyyat

**Məqalə tarixçəsi:** göndərilib – 18.09.2022; qəbul edilib – 24.09.2022

# From the history of research and publication of Gasim bey Zakir's works

**Tarana Javadova**
Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. Azerbaijan.
E-mail: teranecavadova062@gmail.com

**Abstract.** The article examines the life and work of Gasim bey Zakir and gives an overview of the history of the publication of his works. He was a prominent representative of the 19th century Karabakh-Shusha literary environment and the founder of critical realism and public satirical poetry in Azerbaijani literature. Since the lifetime of the poet, starting from the late 19th century, the 20$^{th}$ century, and the last decades of the 21$^{st}$ century, brief information has been provided about the work that has been done in this field; the date of publication of his works is studied in chronological order; and the history of his legacy is presented in general. The article can be used as a supporting source in compiling the bibliography of Gasim bey Zakir. Young scholars who are studying Zakir's legacy can benefit from the results of this work as a source of bibliographic reference.
**Keywords:** Gasim bey Zakir, divan, autographic copy, tazkira, jung, works' collection

**Article history:** received − 18.09.2022; accepted − 24.09.2022

## Giriş / *Introduction*

Şuşa ədəbi mühitinin yetirməsi Qasım bəy Zakir (1784-1857) XIX əsr Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri olub, qəzəldə Məhəmməd Füzuli, qoşma yaradıcılığında Molla Pənah Vaqif məktəbinin layiqli davamçılarındandır. Ədəbiyyat tariximizdə ictimai satiranın banisi hesab edilən Zakirin irsi hələ sağlığında müasirlərinin diqqətini cəlb etmiş, əsərləri haqqında müsbət fikir söylənil-

miş, yaradıcılıq nümunələri mətbuat səhifələrində dərc olunmuşdur.

XIX əsrin sonlarından başlayaraq böyük Azərbaycan şairinin əsərləri nəşrə hazırlanmış və qismən nəşr olunmuş, həyat və yaradıcılığı, ədəbi irsi, xüsusilə də realist təsvirlərin hakim olduğu lirikası müasirlərinin böyük marağına səbəb olmuş, daha sonralar satiraları, pedaqoji görüşləri, poeziya nümunələrindəki didaktika haqqında müəyyən fikirlər söylənilmişdir. XX əsrdə əsərləri dəfələrlə nəşr olunan, XXI əsrin ilk onilliklərində yaradıcılığı müxtəlif rakurslardan öyrənilən Qasım bəy Zakir irsinin nəşr və tədqiq tarixi isə çox az öyrənilmiş, mükəmməl biblioqrafiyası hələ də tərtib olunmamışdır.

Qeyd etmək lazımdır ki, Qasım bəy Zakir irsinin biblioqrafik tədqiqi əsasını 1970-ci ildə M.F.Axundov adına Azərbaycan Respublika Kitabxanasının nəşr etdirdiyi "Qasım bəy Zakir (tövsiyə ədəbiyyat göstəricisi)"dən götürür. Tərtibçisi T.B.Həsənova olan göstərici giriş və iki bölmədən ibarətdir. I bölmədə Zakirin əsərləri, II bölmədə isə 1959-1969-cu illərdə Zakir haqqında nəşr olunan ədəbiyyatın təsviri öz əksini tapmışdır.

## Əsas hissə / *Main Part*

Müstəqillik illərində Zakirin mükəmməl biblioqrafiyası hazırlanmasa da, əsərlərinin tədqiq tarixi monoqrafik tədqiqat obyekti olmuşdur. Ramiz Teymuroğlunun (Əmirxanov) 2007-ci ildə nəşr olunan "Qasım bəy Zakir irsinin tədqiqi" əsəri bu sahədə irəli atılmış bir addımdır. Kitabda Zakirin irsinin nəşri tarixi barədə yeni fikirlər söylənilir. Müstəqil dövlətimizin yaratdığı imkanlar daxilində XIX əsr Azərbaycan satirik ədəbiyyatının ən görkəmli nümayəndəsi kimi, Qasım bəy Zakirin yaradıcılığının nəşri bir daha nəzərdən keçirilir, saf-çürük edilərək mövcud təhriflər və səhv oxunmaları oxuculara çatdırılır [18]. Lakin bu əsər də tam biblioqrafik tədqiqat olmayıb, daha çox ədəbiyyatşünaslıq təhlillərinin aparıldığı araşdırmadır.

Bu baxımdan Qasım bəy Zakirin həyat və yaradıcılığının tədqiqi, əsərlərinin nəşr tarixinin biblioqrafiyaşünaslıq baxımdan tam tədqiq olunduğunu söyləmək mümkün deyil. Bu boşluqdan irəli çıxaraq məqaləmizdə problemə az da olsa, işıq salmağa çalışacağıq.

Zakir yaradıcılığının tədqiq və nəşr tarixi onun fəaliyyətdə olduğu dövrdən başlayır. Zakirin yaradıcılığına ilk müsbət qiyməti XIX əsr Azərbaycan ədəbi fikrinin ən böyük siması, şairin müasiri, eyni zamanda dostu Mirzə Fətəli Axundzadə (1812-1878) vermişdir. O, "Nəzm və nəsr haqqında" başlıqlı məqaləsində yazırdı: *"... mən əyyami-səyahətimdə səfheyi Qarabağda Molla Pənah Vaqifin bir para xəyalını gördüm ki, zikr etdiyim sərt növ ilə onda göründü və dəxi Qasım bəy Sarıcaluyi Cavanşirə düçar oldum ki, əhli türk dilində onun mənzumatı mənim heyrətimə bais oldu. Ondan ötrü ki, dediyim şərt ziyadə onun mənzumatında tapıldı. Mənim əqidəmə görə tarixi-hicridən indiyədək türk arasında şair münhəsirdir məhz bu iki şəxsə. ... Bu iki şəxsin də fərqi bir-birindən budur ki, əgərçi Molla Pənah müqəddəm ərsəyə gəlib bu fənndə Qasım bəyə nisbət rəhnümadır və lakin ləzzət və təsir və mühəssənati-nəzmiyyə Qasım bəyin xəyalatında çoxdur. Məsələn: Qasım bəy qafiyatında öz məhbubəsi ilə bir növ müxatibə və mükalimə edir ki, adam valeh olur və vəqaye və güzarişatı və əhvali-müasirini və ətvari-pirü cavanı bir növ ilə bəyan edir ki, insan vəcdə və zövqə gəlir. Bunun xəyalatı binəzirdir. Ancaq bunun əşarını oxuyanda müstəme inana bilir ki, şeir vaqiən ləzzətə bais olurmuş"* [15, s.315]. Bu dəyərli fikirlər Qasım bəy Zakirin ədəbi irsinə verilən ilk qiymət və onun əsərlərinin tədqiq tarixinin başlanğıcı idi.

Zakirin ilk mətbu əsəri rus-türk müharibəsi (1853-1856) mövzusunda və Krım cəbhəsindəki vəziyyətlə bağlı qələmə aldığı "Fərzəndi-əziz" başlıqlı şeiridir. 1855-ci ildə Tiflisdə çıxan "Kavqaz" qəzetinin 50-ci sayında dərc olunan bu şeir Mirzə Fətəlinin mənzum məktubuna cavab olaraq yazılmış, elə Axundzadənin özü tərəfindən də rus dilinə sətri tərcümə olunaraq orijinalı ilə birlikdə qəzetə təqdim olunmuşdur [17, s.23].

*"Qasım bəy Zakirin ikinci mətbu şeiri Mirzə Yusif Qarabağinin 1856-cı ildə Teymurxanşurada nəşr etdirdiyi "Məcmueyi-Vaqif və müasirini*

*digər" adlı kitabında verdiyi "Molla və qazilərin həcvi haqqında" yazdığı qitədir"* [17, s.23].

Onu da qeyd etməliyik ki, Qasım bəyin əsərlərini ilk dəfə külliyyat halında nəşrə hazırlayan da onun məslək dostu Mirzə Fətəli Axundzadə olmuşdur. Mirzə Fətəlinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan şəxsi arxivində (fond 2) Zakirin bizə gəlib çatan yeganə kamil əlyazma toplusu saxlanılır (*şairin divanının Əlyazmalar İnstitunda qorunan B-2070, M-131 şifrəli əlyazmaları isə naqisdir*). Saxlama vahidi 418 olan əlyazmanın üzərində *"Min kəlami Qasım bəy öz eli-Sarucaluyi Cavanşir və təxəllüs Zakir əlhəq şairəst zərif və müsahibi lətif"* qeydi var. Həmin bu şeir toplusunu Zakir M.F.Axundzadənin Şuşada yaşadığı on ay müddətində onun yaxından köməyi ilə tərtib etmişdir *(Əlyazmada divanın yazılma tarixi və yeri haqqında məlumat yoxdur. Nüsxədəki şeirlər, əsasən, bir katibin xətti ilə köçürülsə də, əlyazmada müxtəlif xətlərlə yazılmış şeirlərə təsadüf edilir. Divanda 325-dən artıq şeir var, lakin onların hamısı Zakirə aid deyil. Əlyazmanın 161b-173b vərəqlərində onun müasirlərinin müaşirəsi – bir-birinə yazdığı 23 mənzum məktubu yer alıb. Divanın 96a, 144a vərəqlərindəki qeydlər Zakirin avtoqrafıdır. Cildinin iç tərəfində isə M.F.Axundzadənin öz xətti ilə divanın tərtibat prinsipləri yazılıb. Bu da nüsxənin 1840-1850-ci illərdə Zakirin sağlığında tərtib edildiyini bir daha təsdiqləyir [Əlyazmanın təsviri üçün Mustafa Mailoğluna təşəkkür edirik])*. Süleyman Rüstəmovun AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan Mirzə Fətəlinin arxivi ilə iş qeydlərindən bəlli olur ki, Zakir M.F.Axundovun fəal köməyi ilə şeirlər divanını da hazırlamışdır. Mirzə Fətəli onun divanının bədii təsnifini qurmuş, bəzi şeirlərin üzərində müəyyən təkmilləşdirmə işi aparmış, şairin əsərlərində adları çəkilmiş tarixi şəxslər barədə yığcam şərhlər vermişdir. Lakin o, Zakirin divanını Vaqifin şeirləri ilə birlikdə Tiflisdə nəşr etdirmək arzusuna nail ola bilməmişdir [12, s.6].

Bu şeirlərdən bəziləri Zakirin vəfatından on il sonra nəşr olunmuş kitaba daxil edilmişdir. Belə ki, şərqşünas Adolf Berje (1828-1886) Mirzə Fətəlinin topladığı materiallardan istifadə edərək "Məcmueyi-əşare-şüərayi-Azərbaycan" adı ilə tanınan kitab çapa hazırlamışdır. Almaniyada, Leypsiq şəhərində almanca müqəddimə ilə 1867-ci ildə nəşr edilmiş həmin topluda Qasım bəyin şeirləri də yer almışdır. Əsəri müasir əlifba ilə nəşrə hazırlayan Əli Məmmədbağıroğlu kitaba yazdığı "Xaricdə çap olunmuş ilk anadilli kitabımız" başlıqlı müqəddimədə "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə ..." toplusuna daxil edilmiş 112 şeirdən 41-inin Qasım bəy Zakirə aid olduğunu qeyd edir və onlardan 1-nin müxəmməs, 1-nin müxəmməs-müstəzad, 11-nin qəsidə (həcv və mədhnamə), 24-ünün mürəbbe, 2-nin müstəzad, 2-nin qəzəl olduğunu göstərir [1, s.11].

XIX əsrin sonlarında Hüseyn Əfəndi Qayıbovun tərtib etdiyi "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" antalogiyasında da Zakirin şeirlərinə geniş yer verilmişdir. Məcmuənin Cahangir Qəhrəmanov tərəfindən çapa hazırlanan birinci cildində Zakirin lirik şeirləri və məsnəviləri bir ümumi "Qarabağ vilayətindən, Cavanşir uyezdindən, Sarıcallu elindən Qasım bəy Zakir təxəllüsün əşarıdır" başlığı altında verilmişdir. Topluda "Müxəmməsati-xalisə", "Müxəmməsati-müstəzadi-tamme", "Ğəzəliyyati-tərci-bəndi-Zakir", "Ğəzəliyyati-tərkib-bəndi-Zakir", "Ğəzəliyyati-müstəzadi-tammeyi-Zakir", "Mürəbbəat və qəvafili-Zakir", "Məsnəviyyati-Zakir" başlıqları altında Zakirin 160-dan çox əsəri yer almışdır [6].

Mir Möhsün Nəvvab (1833-1918) və Seyid Əzim Şirvaninin (1835-1888) təzkirələrində də Qasım bəy Zakirin əsərlərindən nümunələrə yer verilmişdir.

Seyid Əzim Şirvaninin 1878-ci ildə tamamladığı təzkirəsində "Qasım bəy Zakir" başlığı altında şairin 15 əsəri yer alır. Bunlar Zakirin qəzəl, qitə və fərdlərindən nümunələrdir. Əsərlərdən 14-ü Azərbaycan, 1-i fars dilindədir [20, s.63-69].

M.M.Nəvvabın 1913-cü ildə Bakıda kitab halında nəşr olunan təzkirəsində (*müəllif əsəri 1891-ci ildə yazmağa başlayıb, 1892-ci ildə bitirsə də, mütəmadi olaraq üzərində işləyib və təkmilləşdirmişdir*) isə Qarabağdan çıxmış 100-dən artıq şairin sırasında Zakirə xüsusi yer ayrılmış, onun həyatı və yaradıcılığı haqqında müxtəsər məlumat verilmişdir. Təzkirə müəllifi "Qasım bəy Zakir Xındırıstani" başlıqlı hissədə şairin şeirlərinin pərakəndə halda olmasından

şikayət etmiş və əsərlərindən 14 nümunəni təzkirəyə daxil etmişdir [14, s.58-67].

Mirzə Camal Cavanşirin oğlu Rzaqulu bəy Vəzirov (1814-1875) "Müqəddimati-sərgüzəştü Qasım bəy Zakir təxəllüs mərhumun bəzi əhvalı" adlı bioqrafik əsərlərini qələmə alıb. Əsər ilk dəfə 7 mart 1957-ci il tarixli "Kommunist" qəzetində "Zakir haqqında xatirat" başlığı altında dərc olunmuşdur. Burada Qasım bəyin dəqiq şəcərəsi, doğum yeri, Mehdiqulu xanın ona Cavanşir mahalında Xındırıstan kəndini bağışlaması, əsas məşğuliyyəti, başına gələn xoşagəlməz əhvalatlar, onun nahaq şərlənib sürgünə göndərilməsi və s. haqqında qısa məlumat verilir. Mətnə Zakirin "Eşidiblər ki, olur şahidi-şiə məqbul" misrası ilə başlayan qitəsi də daxil edilib. Şairin həmin qitəsinə daxil olan *"Barı bizlər kiminə atmıyalar böhtanı"*, – misrası onun düşdüyü vəziyyəti çılpaqlığı ilə ifadə edir [19, s.80].

Aleksey Osipoviç Çernyayevskinin (1840-1894) 1888-ci ildə Tiflisdə nəşr etdirdiyi "Vətən dili" dərsliyində də Qasım bəy Zakirin əsərlərinə yer verilmişdir. Dərsliyə müəllifin iki təmsili: "Aslan, qurd və çaqqal", "Tülkü və qurd", iki mənzum hekayəsi: "Dərviş və fəqir", "Dəvəsi itən kəs" daxil edilmişdir [2, s.556-557].

Firidun bəy Köçərli (1863-1920) də 1912-ci ildə nəşr etdirdiyi "Balalara hədiyyə" dərsliyində Qasım bəyin əsərlərindən istifadə etmişdir. O, dərsliyə "Durnalara xitab" başlığı altında müəllifin məşhur "Durnalar" rədifli qoşmasını və bir neçə təmsilini: "Tülkü və qurd", "Dəvə və eşşək", "Tülkü və şir", "Dəvə, ilan və tısbağa", "Tısbağa, qarğa, kəsəyən, ahu" alleqorik mənzumələri daxil edilib [10, s.93, 117-149].

Qasım bəy Zakirin əsərlərinin sovet dövründə külliyyat halında nəşrinin tarixi Salman Mümtazla başlayır. Görkəmli mətnşünas şairin "Əsərləri"ni 1925-ci ildə nəşrə hazırladığı "Azərbaycan ədəbiyyatı" seriyasının 8-ci cildinə daxil etmişdir. Bakıda "Kommunist" nəşriyatında çap olunmuş 374 səhifəlik bu kitaba geniş ön söz yazılmış (45 səhifə) və şairin 230 şeiri daxil edilmişdir [5].

Süleyman Rüstəmova görə: *"Kitabda fikir təhrifinə, vəzn pozğunluğuna və sair nöqsanlara tez-tez rast gəlmək olur"* [12, s.9]. Bu isə təbiidir. Çünki bu, həm ilk nəşr idi, həm də Salman Mümtaz kitab üçün materialları müxtəlif mənbələrdən toplamışdı. Həmin məxəzlərin heç də hamısı eyni səviyyədə deyildi. Belə ki, Salman Mümtaz nəşrində səhifələrin altında müxtəlif nüsxələrdən istifadə olunduğuna dair qeydlər vardır.

Elə həmin ildə görkəmli ədəbiyyatşünas və tənqidçi Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabı da nəşr olunmuşdur. 1925-ci ildə çap olunan iki cildliyin 1-ci cildinə "Qasım bəy "Zakir" təxəllüs" oçerki daxil edilmişdir. Oçerk irihəcmli olub, şairin həyat və yaradıcılığı haqqında müfəssəl məlumat verir. Müəllif oçerkin sonunda Zakirin Mirzə Fətəli Axundzadə ilə bir yerdə tərtib etdiyi divanının nəşrinin vacibliyini gündəmə gətirir [9, s.395].

Süleyman Rüstəmov Zakirin əsərlərinin ikinci böyük nəşrinin 1936-cı ildə işıq üzü gördüyünü yazır. Bu nəşrlə tanış olmaq imkanımız olmadı. Lakin S.Rüstəmovun verdiyi məlumatdan aydın olur ki, həmin nəşr kütləvi olduğundan Zakirin əldə olan külliyyatından 300 misra mətn ümumilikdə ixtisar olunmuş, bəzi misraların yerinə (*vulqarizmlər və dini dünyagörüşlə bağlı ifadələr işləndiyi üçün*) nöqtələr qoyulmuşdur [12, s.13-14].

Daha sonra Zakirin əsərləri şairin ölümünün 90 illiyi münasibətilə 1947-ci ildə, artıq kiril qrafikası ilə nəşr olunmuşdur. Onun daha təkmil nəşri 1953-cü ildə Azərbaycan Dövlət Nəşriyatında hazırlanmışdır. Bu nəşrə şairin 247 şeiri daxil edilmişdir. Kitabın tərtibçisi Sadıq Qafarlı olmuşdur [12, s.14]. Şairin əsərlərinin 1957-ci il çapı da daha əvvəlki nəşrindən az seçilir. Həmin nəşrdə şairin divanının məlum yeddi nüsxəsindən ən kamili – Əlyazmalar İnstitutunda, M.F.Axundovun şəxsi arxivində qorunan nüsxə kononik mətn kimi götürülmüş, o vaxta qədər şairin əsərlərinin heç bir çap nüsxəsinə daxil edilməmiş bir neçə əsər salınmışdır.

Qasım bəy Zakirin külliyyatının son zamanlaradək ən mükəmməl nəşri 1964-cü ildə Süleyman Rüstəmov tərəfindən tərtib edilən "Əsərləri"dir. *"Oxuculara təqdim olunan bu nəşr Q.Zakirin əsərlərinin elmi-tənqidi mətni əsasında tərtib edilmişdir. Kitabın müqəddiməsində istifadə olunan mənbələrin təsviri, nəşr əsərlərinin qüsurları və tərtibat prinsiplərindən geniş bəhs edilmişdir. Lakin bu nəşrin kütləviliyini*

*nəzərə alaraq bəzi elmi mübahisəli məsələlər müqəddimədən çıxarılmışdır*" [12, s.38]. Kitabda Qasım bəyin lirik şeirləri: qoşma, təcnis, gəraylı, qəzəl, müxəmməs, müstəzad, tərcibənd və tərkibəndləri, epik şeirləri: mənzum hekayə və təmsilləri, satirik şeirləri, müxtəlif şeir və məktubları yer alıb. "Əlavələr" bölümündə 9 yeni aşkarlanmış şeiri və bayatıları verilmişdir. Nəşrin özəlliyi şərhlər, coğrafi və şəxs adları göstəricilərinin də mətnə artırılmasıdır.

Zakirin "Seçilmiş əsərləri" 1984-cü ildə 200 illik yubileyi ərəfəsində nəşr olunmuşdur. Kitabı tərtib edən və nəşrə ön söz yazan Kamran Məmmədovdur. Topluya əhatəli "Ön söz"dən başqa, Zakirin tənqidi-satirik şeirləri, təmsilləri, mənzum hekayələri, qoşma, təcnis, gəraylı, qəzəl, müxəmməs, müstəzad, tərcibənd və tərkibəndləri, məişət şeirləri daxil edilmişdir. K.Məmmədov 384 səhifəlik kitabın tərtibində M.F.Axundovun arxivində saxlanılan "Zakirin divanı"ndan, əsərlərinin 1925, 1936, 1953, 1957-ci il nəşrlərindən istifadə etdiyini, xüsusən də Süleyman Rüstəmovun 1964-cü ildə nəşrə hazırladığı "Qasım bəy Zakir. Əsərləri" kitabdan faydalandığını müqəddimənin sonunda qeyd etmişdir [13, s.18].

Lakin elmi fəaliyyətinin böyük bir hissəsini Qasım bəy Zakir və müasirlərinin həyat və yaradıcılığının tədqiqinə həsr edən Raqub Kərimov şairin iyirmidən artıq qeyri-mətbu şeirini aşkarlamışdır. Çox sevindirici haldır ki, alim həmin şeirləri də daxil etməklə Zakirin külliyyatını yenidən çapa hazırlamışdır. O, 2013-cü ildə nəşr etdirdiyi "Qasım bəy Zakir və müasirləri" monoqrafiyasının son fəslini elə beləcə – "Qasım bəy Zakirin qeyri-mətbu şeirləri" adlandırmış, 9 dini, 10 müxtəlif məzmunlu lirik və epik şeirini kitabda çap etdirmişdir. Bundan əlavə, bir neçə natamam əsəri haqqında da məlumat vermiş və həmin əsərlərdən əlimizdə olan parçaları monoqrafiyaya daxil etmişdir [17, s.188-234].

*"Bu şeirlərin bir qismi elm aləminə tarixçi kimi məlum olan Mir Mehdi Xəzaninin əlyazmasından tapılmışdır. 117 vərəqdən ibarət olan həmin əlyazmasında Xəzaninin yüzdən çox qəzəl, qəsidə, müxəmməs, müstəzad, qoşma, gəraylı və tapmacaları ilə yanaşı, Vaqif, Zakir, Asi və onlarca digər Qarabağ şairinin şeir nümunələri toplanmışdır"* [17, s.188].

Raqub Kərimov Zakirin yeni əldə edilən şeirləri barədə hələ 1989-1990-cı illərdə "Şuşa" qəzetində (25 dekabr 1989-cu il, № 152 və 6 yanvar 1990-cı il, № 3) çap etdirdiyi məqalədə məlumat verdiyini, 4 qoşmasını dərc etdirib, digər tapıntılar haqqında da ilk dəfə elm aləmini bilgiləndirdiyini yazır. Həmin şeirlərdən biri də "Qaşların" qoşmasıdır ki, ilk bəndini diqqətinizə çatdırmaq istərdik:

*Bəyazi-hüsnündə, sevdigim, bənzər*
*Baş-başa çatılmış yaya qaşların.*
*Badi-səba əymiş gül budağı tək*
*Salıb üzarinə sayə qaşların.* [17, s.205]

Zakirin həyat və yaradıcılığının kompleks halda monoqrafik tədqiqi sahəsində də mühüm işlər görülmüşdür.

1957-ci ildə Kamran Məmmədov (1922-1989) "Qasım bəy Zakir" monoqrafiyasını çap etdirmişdir. 1985-ci ildə Azərbaycan KP Mərkəzi Komitəsinin Qasım bəy Zakirin anadan olmasının 200 illik yubileyinin qeyd olunması haqqında müvafiq qərarına əsasən, həmin monoqrafiya "Azərbaycanın görkəmli adamları" seriyası çərçivəsində yenidən nəşr olunmuşdur. Monoqrafiyada Zakirin həyatının mühüm anları, əsərlərinin dili və özəl xüsusiyyətləri, dostları, yaradıcılıq əlaqələri, satiralarının əsas hədəfləri və s. haqqında ətraflı məlumat almaq olur. Kitabın mühüm cəhətlərindən biri də 79 müxtəlif adda ədəbiyyat (kitab, məqalə) və 5 arxiv materialını ehtiva edən "Qısa ədəbiyyat" başlığı altında müxtəsər biblioqrafiyanın monoqrafiyaya əlavə olunmasıdır. Burada Zakirin əsərlərinin əsas nəşrləri, onun haqqında olan mühüm mənbələr və dəyərli arxiv materiallarının qısa annotasiyası verilmişdir [11].

1960-cı ildə işıq üzü görən "Azərbaycan ədəbiyyatı tarixi"nin II cildində də Qasım bəy Zakirin həyat və yaradıcılığına xüsusi oçerk həsr olunmuşdur. Kitabın "XIX əsrin birinci yarısında ədəbiyyat" başlıqlı 1-ci fəslinə daxil edilmiş "Qasım bəy Zakir" oçerkinin müəllifi də Kamran Məmmədovdur. 25 səhifə həcmində olan bu geniş oçerkdə Zakirin həyatı, yaradıcılığı, ədəbiyyatımızda mövqeyi, tənqidi realizmin və ictimai satiranın inkişafında rolu, didaktikası, ictimai və fəlsəfi görüşləri haqqında ətraflı məlumat verilir. Onun Vaqifdən sonra Azər-

baycan bədii dilinin daha yüksək pilləyə qalxması və klassik ədəbiyyatda xalq yaradıcılığı ənənələrinin möhkəmlənməsindəki xidmətlərindən danışılır. Müəllif Zakiri Vaqiflə birləşdirən və ayıran xüsusiyyətlərə xüsusi diqqət yetirir, əsərlərinin ictimai əhəmiyyətini belə müəyyən edir: *“Zakirin lirikasında Azərbaycan koloriti qüvvətlidir. Şair öz ilhamını yaşadığı həyatdan, gördüyü canlı insanlardan, doğulub, böyüdüyü milli zəmindən almışdır. Onun lirikası XIX əsr Azərbaycan həyatının bir çox cəhətlərini öyrənməyə, oxucuda qabaqcıl görüşlərin, incə zövqün, gözəl hisslərin tərbiyə olunmasına kömək edir”* [3, s.106].

Zakir haqqında digər əhəmiyyətli oçerk Feyzulla Qasımzadəyə aiddir. İlk dəfə 1966-cı ildə çap olunan və ali məktəblər üçün hazırlanmış “XIX əsr Azərbaycan ədəbiyyatı tarixi” dərsliyində “XIX əsrin birinci yarısında satirik poeziya” fəsli daxilində yer almış “Qasım bəy Zakir” oçerki kifayət qədər iri həcmdə (29 səhifə) olub, şair, onun həyat və yaradıcılıq yolu, əsərlərinin bədii xüsusiyyətləri və ictimai əhəmiyyəti haqqında dolğun təəssürat yaradır. F.Qasımzadə Zakirin əsərlərini məzmununa görə, əsasən, üç hisssəyə bölür: lirik şeirləri, satiraları, didaktik mahiyyət daşıyan təmsil və mənzum hekayələri. Lakin o da sələfi Mirzə Fətəli kimi, şairin qoşmalarına xüsusi önəm verir və onun bu janrda olan əsərlərini ümumi şəkildə belə xarakterizə edir: *“Zakirin qoşmalarında gözəlin vəsfi ilə bərabər, həqiqi aşiqin mənəvi aləmi, düşgün ehtiraslardan uzaq, təmiz məhəbbəti və bu yolda çəkdiyi iztirabları tərənnüm olunur. Gözəlin romantik təsviri, onun bütün təbiət və dünya gözəlliklərinə tərcih edilməsi, eyni zamanda şairin təsvir etdiyi gözəldən şikayəti, aşiqin dərdli könlü, həsrət, intizar, kədər Zakir qoşmalarının əsas xüsusiyyətlərini təşkil edir”* [7, s.210].

2011-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşrə hazırladığı “Azərbaycan ədəbiyyatı tarixi”nin 4-cü cildində də Qasım bəy Zakirə xüsusi oçerk həsr edilmişdir. Oçerkin müəllifi Nadir Məmmədov 37 səhifə həcmində (s.179-216) geniş yazıda Zakirin həyatı, lirikası, mənzum məktub və həcvləri, satiraları, təmsil və mənzum hekayələri haqqında ətraflı məlumat verir. O, sovet dövründə tədqiqat aparan sələflərindən fərqli olaraq, Qasım bəyin dini mövzuda olan əsərləri barədə də söhbət açır, şairin *“Bu nə mahdır ki, həddən keçib iztirabi-Zeynəb?”* misrası ilə başlayan növhəsindən bir parçanı nümunə gətirir. Alim yazır: *“Zakir klassik Şərq ədəbiyyatının mühüm qolunu təşkil edən dini poeziya sahəsində də qələmini sınamış və Azərbaycan dilində mərsiyə, növhə və sinəzənlər yazmışdır. Şairin bu şeirlərində İmam Hüseyn və onun məsləkdaşlarının Kərbəlada şəhid olması, qohum və tərəfdarlarının ağır taleyi çox yanıqlı bir üslubda, canlı xalq dilində, sənətkarlıqla təsvir olunmuşdur”* [4, s.198].

Artıq qeyd etdiyimiz kimi, Raqub Kərimovun 2013-cü ildə nəşr etdirdiyi “Qasım bəy Zakir və müasirləri” monoqrafiyası, 2017-ci ildə müdafiə etdiyi “Qasım bəy Zakir: həyatı, dövrü, mühiti və müasirləri” mövzusunda doktorluq dissertasiyası Zakirin həyat və yaradıcılığının öyrənilməsinin yeni mərhələsi sayıla bilər. Çünki R.Kərimov təkcə Zakirin həyatının bu vaxta qədər geniş ictimaiyyətə açıqlanmamış bəzi mühüm faktlarını, yaradıcılığının yeni aşkarlanmış nümunələrini ortaya qoymamış, eyni zamanda Qasım bəyin həyat və yaradıcılığını dövrünün prizmasından müstəqil dövlətimizin yaratdığı imkanlardan istifadə edərək daha sərbəst öyrənmişdir. Heç təsadüfi deyil ki, onun monoqrafiyasının birinci fəsli elə belə də adlanır: “Zakirin irsinə yeni baxış”. Həmin fəsildə zakirşünaslıqda, demək olar ki, çox az öyrənilmiş bir mənbə – Məhəmməd ağa Müctəhidzadənin “Riyazül-aşiqin” təzkirəsi tədqiqata cəlb olunur. Tədqiqatçı bu təzkirəyə müəllifin 17 qəzəli, 1 müxəmməsi, 2 növhəsi ilə bərabər, həyatına dair müxtəsər, lakin qiymətli məlumatlar da verməsini diqqətə çatdırır. R.Kərimov XIX əsrdə tərtib edilmiş əksər cüng, bəyaz, şeir dəftərlərindən fərqli olaraq, M.Müctəhidzadənin təzkirəsində Zakirin əsərlərinin təhrif və səhvlərdən arınmış vəziyyətdə olmasını xüsusilə qeyd edir [17, s.37].

Monoqrafiyanın bir müsbət cəhəti də Q.Zakir ilə Cəfərqulu xan Nəvanın arasındakı münasibətə aydınlıq gətirilməsidir. Alimin təqdim etdiyi yaradıcılıq nümunələrindən, hər iki şairin şeirləşməsindən gətirdiyi sitatlardan aydın olur ki, onlar arasında mehriban dostluq münasibəti olmuş, hətta hər iki qələm əhli bir-biri ilə zarafatlaşacaq dərəcədə yoldaşlıq etmişlər. Müəllif

yazır: *"Əfsuslar olsun ki, sonrakı dövlərdə onların arasında olan bu səmiyyətin üstündən qara bir xətt çəkilmiş, əksər sovet tədqiqatçıları Zakirin yazdığı mənzumənin ümumi məzmunundan deyil, ayrı-ayrı zarafatla deyilmiş beytlərdən təhrif olunmuş şəkildə istifadə edərək, hətta həmin dövrdə Zakirlə Cəfərqulu xanın az qala barışmaz düşmən olduqlarını böyük ciddi cəhdlə, birtərəfli qaydada sübut etməyə çalışmışlar*" [17, s.61].

Raqub Kərimovun Zakirlə bağlı maraq doğuran son tədqiqatlarından biri də "Qasım bəy Zakirin farsca şeirləri" adlı məqaləsidir. "Mədəniyyət.az" jurnalının 2016-cı ilin 2-ci nömrəsində işıq üzü görən bu məqalədə müəllif Qasım bəyin farsca bədahətən şeir demək qabiliyyətinə malik olduğunu da mötəbər mənbələrə istinadən ortaya qoyur. Alim Zakirin farsca əsərlərində həyatdan götürdüyü faktları, şahidi olduğu hadisələri, tanıdığı adamları təsvir etməsini əsas alaraq onun əcnəbi dildə də yaradıcılığında realist olmasını təsdiq edir [16, s.77].

Onu da qeyd etməliyik ki, müstəqillik illərində Qasım bəy Zakirin yaradıcılığı müxtəlif rakurslardan tədqiq olunmuşdur. Məsələn, Fərahim Sadiqov "Orta məktəbdə Qasım bəy Zakirin həyat və yaradıcılığının tədrisi" məqaləsində şairin irsinin orta və ali məktəblərdə öyrədilməsindən (1994), Nizami Xəlilov "Q.Zakirin yaradıcılığında aşıq şeirinin şəkilləri" (2013) məqaləsində Qasım bəyin şifahi xalq ədəbiyyatından bəhrələnməsindən, Savalan Fərəcov "Qasım bəy Zakirin maarifçi dünyagörüşü" məqaləsində sənətkarın maarifpərvərliyindən (2014), Nizami Cəfərov "Rus dilinin Qafqaza nüfuzu və yaxud Qasım bəy Zakirin rus leksikonu" (2014) məqaləsində müəllifin əsərlərindəki varvarizmlərdən, Elnurə Babayeva "Qasım bəy Zakirin epik əsərlərində mənəvi-əxlaqi dəyərlər" (2016) məqaləsində Zakir didaktikasından, Təranə Rüstəmova "Qasım bəy Zakirin təmsillərində Şərq və Qərb təmsilçiliyi" (2019) məqaləsində Zakir yaradıcılığında alleqoriyadan bəhs etmişlər.

Bu tədqiqatlar sırasında monoqrafik araşdırmalar da var. Məsələn, 1997-ci ildə nəşr olunan Süleyman Hüseynov və Fərahim Sadıqovun "Qasım bəy Zakirin əsərlərinin dil xüsusiyyətləri" monoqrafiyası xüsusi maraq doğurur. Kitabda şairin həm lirik, həm də satirik şeirlərinin, mənzum hekayə və təmsillərinin leksikası və frazeologiyası tədqiq edilir. Tədqiqatçılar şairin leksikonunu ilk dəfə semantik cəhətdən araşdırır, leksika mənbələrinə görə müəyyənləşdirir, sənətkarın dilində frazeoloji vahidlərdən istifadəyə xüsusi önəm verərək, Zakir əsərlərinin bədii dilimizin zənginləşməsində əhəmiyyətini ortaya qoyurlar [8].

## Nəticə / *Conclusion*

Beləliklə, məqaləmizdə Qasım bəy Zakirin yaşadığı dövrdən başlayaraq, 2019-ci ilədək şairin həyat və yaradıcılığının tədqiqi və əsərlərinin nəşri tarixinə ümumi nəzər saldıq. Əldə edə bildiyimiz nəşrlər əsasında onun külliyyatı, əsərləri, divanı, seçilmiş əsərləri və ayrı-ayrı yaradıcılıq nümunələrinin nəşr tarixinə qısa ekskurs etdik. Zakirin həyat və yaradıcılığının tədqiq və nəşr tarixində ən mühüm nəşrləri təhlil süzgəcindən keçirərək, hər birinin özəlliklərini, müsbət cəhətlərini, yeri gəldikcə, mənfi tərəflərini təqdim etməyə çalışdıq. Tədqiqatımız biblioqrafik istiqamətdə olduğundan, diqqət daha çox nəşrlər arasındakı fərqlərin müəyyənləşdirilməsinə, yeniliklərin təqdiminə yönəlmişdir. Ümid edirik ki, 2022-ci ilin ölkədə "Şuşa ili" elan edilməsindən ruhlanaraq, bu münbit Azərbaycan torpağının görkəmli yetirməsi olan Qasım bəy Zakirin biblioqrafiyası da tərtib olunacaq və bu sahədə apardığımız təsvir xarakterli tədqiqat isə həmin nəşrə bir yol xəritəsi olacaqdır.

## Ədəbiyyat / *References*

1. Adolf Berje. Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir ki, Adolf Berje sahibcənabının ehtimamilə mətbu olunmuşdur, mətni tərt. ed., transfon., ön söz: Ə.Məmmədbağıroğlu. Bakı: Elm və təhsil, 2014.

2. Aleksey Osipoviç Çernyayevski. Vətən dili, I hissə; Çernyayevski A.O., Vəlibəyov S.H. Vətən dili, II hissə, transfon., ön söz və izah, V.Qaradağlı. Bakı: Elm və təhsil, 2018.
3. Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, II cild, XIX əsrin əvvəllərindən 1917-ci ilə qədər, cildin redaktorları: Ə.Sultanlı, Ə.Mirəhmədov, K.Talıbzadə. Bakı: AzSSR EA nəşriyyatı, 1960.
4. Azərbaycan ədəbiyyatı tarixi, 6 cilddə, IV cild. Cildin məsul redaktoru: B.Nəbiyev. Bakı: Elm, 2011.
5. Azərbaycan ədəbiyyatı, 8-ci cild: Qasım bəy Zakir, tərt. ed. və ön söz: S.Mümtaz. Bakı: Kommunist, 1925.
6. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir, I cild, tərt. ed.: Hüseyn Əfəndi Qayıbov, çapa hazır: Cahangir Qəhrəmanov. Bakı: Elm, 1986.
7. Feyzulla Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, ali məktəblər üçün dərslik, işlənilmiş ikinci nəşri. Bakı: Maarif, 1974.
8. Fərahim Sadıqov, Süleyman Hüseynov. Qasım bəy Zakirin əsərlərinin dil xüsusiyyətləri. Bakı: Gənclik, 1997.
9. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı, İki cilddə, I cild, tərt. ed, müqəd., izah: R.Qənbərqızı. Bakı: Avrasiya-Press, 2005.
10. Firidun bəy Köçərli. Balalara hədiyyə. Bakı: Şərq-Qərb, 2013.
11. Kamran Məmmədov. Qasım bəy Zakir. Bakı: Gənclik, 1985.
12. Qasım bəy Zakir. Əsərləri, tərt., müqəd. və şərh: S.Rüstəmov. Bakı: AzSSR EA, 1964.
13. Qasım bəy Zakir. Seçilmiş əsərləri, tərt. və müqəd.: K.Məmmədov. Bakı: Yazıçı, 1984.
14. Mir Möhsün Nəvvab. Təzkireyi-Nəvvab, tərt. ed., ön söz: Ə.Bağırov. Bakı: Elm, 2018.
15. Mirzə Fətəli Axundov. Bədii və fəlsəfi əsərləri. Tərt. ed. və müqəd.: H.Məmmədzadə. Bakı: Yazıçı, 1987.
16. Raqub Kərimov. Qasım bəy Zakirin farsca şeirləri // Mədəniyyət.az, 2016, № 2.
17. Raqub Kərimov. Qasım bəy Zakir və müasirləri. Bakı: Elm və təhsil, 2013.
18. Ramiz Teymuroğlu. Qasım bəy Zakir irsinin tədqiqi. Bakı: Kooperasiya, 2007.
19. Rzaqulu bəy Vəzirov. Əsərləri, tərt. ed. və ön söz: Ə.Çingizoğlu. Bakı: Şuşa, 2005.
20. Seyid Əzim Şirvani. Əsərləri, 3 cilddə, III cild, tərt. və şərh: S.Rüstəmov. Bakı: Elm, 1974.

## Из истории исследования и публикации произведений Гасым бека Закира

**Тарана Джавадова**
Институт рукописей имени Мухаммеда Физули НАНА. Азербайджан.
E-mail: teranecavadova062@gmail.com

**Резюме.** В статье рассматривается жизнь и деятельность Гасым бека Закира, видного представителя Карабахско-Шушинской литературной среды XIX века, основоположника публицистической сатирической поэзии в азербайджанской литературе, дается обзор истории публикации его произведений. Даны краткие сведения о работе, проделанной в этой области со времен жизни поэта в конце XIX века, в XX веке и последних десятилетиях XXI века, в хронологическом порядке изучены даты выхода в свет его произведений, а также представлена история его наследия в общих чертах. Статья может сыграть роль пособия при составлении библиографии Гасым бека Закира. Её результаты могут быть использованы молодыми учеными, изучающими наследие Закира, в качестве источника библиографической справки.
**Ключевые слова:** Гасым бек Закир, диван, автографический экземпляр, тазкира, джунг, сборник трудов